# VƏTƏN SEVDALI ŞAİR

***Həsənova Aidə Ədib qızı***
***Gəncə Dövlət Universiteti***
***Aidahasanova1@mail.ru***

**Xülasə:** *Görkəmli Azərbaycan şairi Əhməd Cavad Axundzadə ədəbi-ictimai fikrimizdə romantizm ədəbi məktəbinin istedadlı nümayəndəsi, nasir, publisist və "milli istiqlal şairi" kimi məşhurdur. Onun zəngin ədəbi yaradıcılığı milli tarixi və ədəbi -mədəni irsimizi araşdırmaq baxımından ədəbiyyatşünaslıq elmimizə dəyərli faktlar verir. Azərbaycanın yenidən istiqlala qovuşduğu hazırkı dövrdə Ə.Cavad və silahdaşlarının mübariz həyat yollarını, yaradıcılıqlarının ideya-sənətkarlıq xüsusiyyətlərini elmi şəkildə öyrənmək xüsusi əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** Əhməd Cavad**,** müstəqillik, azadlıq,istiqlal, bayraq, şeir
**Ключевые слова:** Ахмад Джавад, независимость, свобода, суверенитет, флаг, поэзия
**Key words:** Ahmad Javad, independence, freedom, sovereignty, flag, poetry

Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti rus imperiyasının XI ordusu tərəfindən süquta uğradıldıqdan və ölkəmiz bolşevik-erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra respublikamızın bir çox milli düşüncəli yazıçıları, şairləri, dövlət xadimləri sovet quruluşunun əleyhinə çıxdıqlarına görə işgəncələrə məruz qaldılar, həbsxanalara salındılar, sürgünə göndərildilər, gizli və açıq şəkildə güllələndilər. Bəziləri isə bu haqsızlıqlara görə Azərbaycanı tərk etməyə məcbur oldular, xarici ölkələrdə mühacir həyatı yaşadılar. Onlardan biri də Azərbaycan ədəbiyyatında istiqlal şairi kimi tanınan Əhməd Cavaddır.

Xalqımızın müstəqillik ideallarına bütün həyatı boyu sadiq qalan Əhməd Cavad Azərbaycan poeziyasında yeni bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Şairin zəngin yaradıcılığı milli azadlıq və istiqlal uğrunda mübarizə motivlərinin aparıcı mövqeyi ilə səciyyələnərək dövrün ictimai -siyasi mənzərəsini dolğun əks etdirir.

Ə.Cavadım yaradıcılığında heyrət doğuracaq dil sadəliyi, təsvir və ifadə vasitələrinin əlvanlığı, misralar arasında üzvi əlaqə, yüksək şeriyyət, bəzi dini etiqadlardan irəli gələn motivlərlə yanaşı, bəşəri, dünyəvi cəhətlər də aparıcı mövqeyə malikdir. Milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış, əski inamlara , xalqın yaddaşına qayıdış kimi duyğular onun şeirlərinə hopdurulmuşdur.

Şair ətrafında baş verən heç bir hadisəyə biganə qalmamışdır. Onların hamısına poetik cavab verməyə səy göstərmiş, öz gücünü, köməyini, istedadını və vaxtını əsirgəməmişdir. "Bən kiməm" şeiri zamandan, dövrdən narazılıq, şikayət motivləri üzərində köklənmişdir.

Soranlara bən bu yurdun,
Anlatayım nəçiyəm:
Bən çeynənən bir ölkənin,
"Haqq" bağıran səsiyəm!

Xalqın ağır vəziyyəti şairin qəlbini qana döndərmişdir. Bu qədər sərvəti olan torpağın övladları malik olduqlarının mində birinə də sahib deyildir. Hər yer xərabə, hər yer könül küsdürən mənzərələrdən ibarətdir. Elin, obanın güzəranı ağırdan-ağırdır. Milli qırğınları da bura əlavə etsək , şəhidlərin yasını yada salsaq şairin əhval-ruhiyyəsinin niyə belə olduğu aydınlaşar.

Belə bir vaxtda türklərin köməyə gəlməsi Ə.Cavadın “Qara dəniz ” şeirində minnətdarlıq əlamətləri ilə əks etdirilmişdir.Onun qəlbində inam yaranır, sevinc qığılcımları bərq vurur.

Çırpınırdı, Qara dəniz,
Baxıb türkün bayrağına!
“Ah!..” deyərdim, heç ölməzdim,
Düşə bilsəm ayağına!

Şairin idealı, inamı, sevgisi olan bayraq!

Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir.

Qəlbi vətən eşqi ilə yanan bu böyük sənətkar əsərlərində vətənə və xalqına məhəbbətini əks etdirmiş, milli duyğuları dilə gətirmiş, elm, maarif, milli oyanış və ana dili kimi məsələləri gündəmə çıxarmışdır. Bu hislərlə ədəbiyyata gələn Əhməd Cavad "haqq bağıran səsi” olduğu ölkəsinin dövlət müstəqilliyi əldə etdiyi illərdə bu müstəqilliyin tərənnümçüsünə çevrilmiş, dövlət rəmzlərinə ən çox şeir qoşan və bu müstəqilliyin verdiyi qüruru daha çox tərənnüm və təbliğ edən şair kimi özünü təsdiq etmişdir. Şairin böyük məhəbbətlə yazdığı "Nədən yarandın” şeirində:

Sən qüdrətin aşıb-coşan vaxtında,
Mələklərin gülüşündən yarandın.
...Qaranlıqda boğularkən ümidim
Dan ulduzu yürüşündən yarandın!
...Qələm əldə ilhamını dinlərkən
Sən qəlbimin vuruşundan yarandın!

- deyə bu milli fəxarət və qüruru əks etdirilir. Onun "Azərbaycan bayrağına” şeiri də bu ruhda yazılan, sənətkarın bir vətəndaş-şair olaraq dövlət müstəqilliyinə, xalqının, millətinin, vətəninin müstəqillik simvoluna bəslədiyi sonsuz məhəbbətini, qürurverici hisslərini ifadə edir. Bu əsəri Azərbaycanın müstəqillik tarixində bayrağa məhəbbət dolu şeirlər silsiləsinin mənəvi atası da adlandırmaq olar. Türküstan elləri öpüb alnını,

Söylüyor dərdini sana, bayrağım!
Üçrəngli əksini Quzğun dənizdən,
Ərməğan yollasın yara, bayrağım!
Gedərkən Turana çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma...
İzn ver gözümdə coşan yaşıma –
Dinlətsin dərdini aha, bayrağım!
Qayi xan soyundan aldığın rəngi,
Qocalmış Elxanla müsəlman bəgi.
Elxanın övladı, dinin dirəgi,
Gətirdin könlümə səfa, bayrağım!
Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

Şeir özünün bədii təsir gücü, səmimiliyi və dövlətçilik dəyərlərinə vətəndaşlıq məhəbbəti ilə seçilən, bədii-estetik əhəmiyyətilə diqqəti cəlb edən əbədiyaşar bir əsərdir. Diqqət edilsə, şair təkcə tərənnüm və vəsf etmir, həm də bayraqdakı rəmzi işarələrin mənasını açır, onun müqəddəsliyi və ucalığını hiss etdirir, hətta milli dövlətçilik tarixinə nəzər salır, milli dövlətçilik ənənələrini izləyərək bu müqəddəs Oğuz-Türk yurdunda mövcud olmuş məşhur Elxanilər-Atabəylər dövlətinə işarə edir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əhməd Cavadın yaradıcılığında azadlıq, istiqlal ideyalarının tərənnümü ilə yanaşı, doğma Vətən, onun əsrarəngiz təbiəti də böyük məhəbbətlə vəsf edilmişdir. Bu cəhətdən şairin lirikasının gözəl nümunələrindən olan "Göygöl" şeiri daha xarakterikdir.

Ə.Cavad bu şeiri Azərbaycan təbiətinin incisi sayılan Göygölün bənzərsiz gözəlliyindən ilhamlanaraq qələmə almışdır. Şair müxtəlif bədii təsvir vasitələrindən istifadə edərək bu gözəlliyi dolğun şəkildə oxuculara çatdırmışdır. Şeir həm də ona görə təsirlidir ki, onun hər misrasında şairin yanğısı, doğma diyara, ana təbiətə böyük məhəbbəti hiss olunur.

Dağların qoynunda, yaşıllıqların əhatəsində qərar tutan, Tanrıdan aldığı gözəlliyi ilə ətrafa hakim kəsilən, bu gözəllikdə sanki təbiətin özünə belə naz satan Göygöl! Məgər Azərbaycanı varlığı qədər sevən Ə.Cavad doğma diyarın təbiətinin bu nadir gözəlliyindən vəcdə gəlməyə bilərdimi? Əsla yox! Ana təbiətin bənzərsiz abidəsi Göygöl ömrü boyu "azadlıq", "istiqlal" deyən |şairin xəyallarını qanadlandırmış, qəlbini iftixar hissi ilə doldurmuşdur. Müəllif şeirin elə ilk bəndindəcə gözlərimiz önündə füsunkar bir təbiət mənzərəsi canlandırır. Sanki rəssam əlinə fırça götürüb gözlə gördüklərini tabloya köçürmüşdür.

Dumanlı dağların yaşıl qoynunda
Bulmuş gözəllikdə kamalı Göygöl.
Yaşıl gərdənbəndi gözəl boynunda
Əks etmiş dağların camalı, Göygöl.

Hiss edəndə ki, bu gözəllik mücərrəd şair təxəyyülünün məhsulu deyil, müəllif konkret məkandan, Vətənimizin bir guşəsindən söhbət açır, sənin də qəlbin iftixar hissi ilə dolur, şairin sevincindən sənə də pay düşür, fərəhlənirsən...

Ə.Cavad Göygölün şöhrətinin Şərqə, Şimala yayılmasından, şairlərin onun halına heyran qalmalarından məmnunluqla söhbət açır. Şairin qənaətinə görə, təbiətin bu nadir incisinin gözəllikləri saya gəlməz qədər çoxdur. Şair Göygölə o qədər məftundur ki, «Bulunmaz dünyada bənzərin deyərək» yer üzündə ona tay-bərabər tutmağa heç nə tapa bilmir.

Lakin vətənpərvər şair "Göygöl" şeirini heç də başdan ayağa qədər nikbin notlar üstündə qələmə almamışdır. Şeir bir-birindən gözəl təbiət mənzərələri ilə yanaşı, mətnaltı mənalarla da zəngindir. Belə ki, əsərin ayrıayrı sətirlərində müəllifin dərin nisgili hiss olunur. Şair Göygölün seyrinə gələnlərə xitab edərək deyir:

Kəsin eyşi-nuşi, gələnlər, susun,
Dumandan yorğanı, döşəyi yosun.
Bir yorğun pəri var, bir az uyusun,
Uyusun dağların maralı, Göygöl.

Nə idi doğma təbiətin bir guşəsinin əsrarəngiz gözəlliyindən vəcdə gələn şairi duyğulandıran, onu pərişan edən? Nə üçün şair gözəllər-gözəli Göygölü yorğun pəriyə bənzədir? Nə üçün onun pişvazına gələnlərə susmağı, "eyşi-nuşi kəsməyi" məsləhət bilir? Hanı həmişə qonaq-qaralı olan Göygölün büsatı, şad, çal-çağırlı günləri?

Şairin nisgili, təlatümlü hisslər keçirməsi təsadüfi deyildir. Ə.Cavad bu şeiri Azərbaycan Demokratik Cümhuriyyəti süqut etdikdən sonra - sovet hakimiyyəti illərində yazmışdır. Azadlıq aşiqi olan Ə.Cavad Azərbaycanın dövlət müstəqilliyinin əlindən alınmasını sakit qarşılaya bilməzdi. Şair Göygölün pəjmürdə halını, əvvəlki növrağının pozulduğunu təsvir etməklə, sanki ana təbiətin də məmləkətin acı taleyinə yas saxladığını nəzərə çarpdırmaq istəmişdir.

Şairin Göygölə xitabən:

Bir sözün varmıdır əsən yellərə,

Sifariş etməyə uzaq ellərə? - kimi kədərli sualları da Azərbaycanın dövlət müstəqilliyini itirməsi səbəbindən keçirdiyi narahatlıqla bağlıdır. Təsadüfi deyildir ki, «Göygöl» şeirinə görə vətənpərvər şair təqiblərə məruz qalmışdır.

Əhməd Cavadın həbsxanada yazdığı şeirləri onun yaradıcılığının bir mərhələsi hesab edilir. Altı ay həbsdə qalmasına və olmazın işgəncələr çəkməsinə baxmayaraq Ə.Cavad bir şair və vətənpərvər şəxsiyyət kimi sınmamış, əksinə, həbsdəykən ideya düşmənlərinə, milli mədəniyyətimizin əbədi dəyərləri, adi həqiqətləri kursundan sapmış bolşevik əlaltılarına, Azərbaycan xalqının bədxahlarına cavab və ittiham şeirləri qələmə almışdır.

Əhməd Cavadın həbsxanada olarkən yazdığı "Göy göl", "Ay ellər", "Neynim", "Susmaram" və s. əsərləri onun yaradıcılığının ən gözəl lirik şeirlərindəndir.

Mən Türk övladıyam, dərin ağlım, zəkam var,
Nə vaxtacan çiynimizdə gəzəcəkdir yağılar?
Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam,
Zülmə qarşı üsyankaram, əzilsəm də susmaram.

## ПАТРИОТ ВЛЮБЛЕННЫЙ В РОДИНУ

***Гасанова Аида Адиб кызы***

***Резюме***

Выдающийся азербайджанский поэт Ахмед Джавад Ахундзаде известен в нашем литературном и общественном мнении как талантливый представитель романтического литературного направления, прозаик, публицист и «поэт национальной независимости». Его богатое литературное творчество дает ценные факты нашему литературоведению в плане исследования отечественной истории и литературно-культурного наследия. В настоящий период, когда Азербайджан вновь обрел независимость, особое значение имеет научное изучение образа жизни А. Джавада и его соратников, борцов своего времени, а также идейно-художественных особенностей их творчества.

## A PATRIOT IN LOVE WITH HIS HOMELAND

***Hasanova Aida Adib***

***Summary***

Outstanding Azerbaijani poet Ahmed Javad Akhundzadeh is known in our literary and public opinion as a talented representative of the romantic literary trend, prose writer, publicist and "poet of national independence. His rich literary work provides valuable facts to our literary studies in terms of the study of national history and literary and cultural heritage. At the present time, when Azerbaijan regained its independence, the scientific study of the lifestyle of A. Javad and his fellow fighters of his time, as well as the ideological and artistic features of their work is of particular importance.

***Rəyçi: dosent Məlikova G.A.***
***Azərbaycan dili kafedrasının 07 dekabr 2022-ci il tarixli iclasın 06 saylı protokolu***
***Daxil olduğu tarix 12 dekabr 2022 –ci il***